Ədəbiyyat qəzeti



İlham ƏLİYEV: "Qarabağ Azərbaycandır və nida!"

10 oktyabr / 2020

Barat
VÜSAL



# Yarama torpaq tökün

*Ərimәli, yanmalı pərvanələr şam üçün,*
*Bu sözlər qanun olsun gərək hər adam üçün,*
*Dizinizə döyməyin qan verən yaram üçün,*
*Mən ayağa qalxacam,*
*yarama torpaq tökün!*

*Gərək bu gün poladdan qolum-qanadım olsun,*
*Vətənin dar günləri məhşər saatım olsun!*
*Vətənin qarşısında bu, əsgər andım olsun,*
*Mən ayağa qalxacam,*
*yarama torpaq tökün!*

*Bəsdi deyib-ağladım, "yoxdu bir kəsim" - deyə,*
*Qoymaram borclu qalıb ruhum tələssin göyə!*
*Anamın göz yaşları bir yolluq kəssin deyə*
*Mən ayağa qalxacam,*
*yarama torpaq tökün!*

*Bu səs əsgər səsidi, ürəkdən gəlir, bilin!*
*Yatmış baxtım, iqbalım oyanıb gülür, bilin.*
*Qoy o qız da durmasın elə boynu bükülü,*
*Mən ayağa qalxacam,*
*yarama torpaq tökün!*

*Qan itirə-itirə elə bil qan tapmışam,*
*Allahdan nazil olan "Quran", iman tapmışam.*
*Bütün dərdləri yenən təzə dərman tapmışam,*
*Mən ayağa qalxacam,*
*yarama torpaq tökün!*